# BİZİM MƏMMƏD ORUC

**(Yetmiş yaşına)**



**Vaqif YUSİFLİ,**
**filologiya elmləri doktoru**

**Ömür-gün keçib-gedir. Lap yuxu kimi. Yatırsan, ayılanda bir də görürsən ki, "Şirin-şirin yuxudaydıq, "Bir zalım oyatdı bizi" (R.Rövşən). Oyanırıq, sanki inana bilmirik yuxuda olmuşuq.**

Mənim əlli illik dostum Məmməd Oruc indi yetmiş yaşındadır. Hər il 8 martda bir yaş gəlir ömrünə. Mən onun şivərək, gözəlliyi üzündə rəsm olunan cavanlığını görmüşəm. İllər gəlib keçib, o cavan oğlan indi babadır, ailəsinin ağsaqqalıdır, ədəbi aləmdə Məmməd Oruc ünvanı və imzası ilə məşhurdur. Əsərləri Azərbaycandan uzaqlarda da nəşr edilib.

Təzə-təzə ilk yazılarını "Azərbaycan gəncləri"ndə dərc etdirən, o qəzetin redaktoru Cəmil Əlibəyovun hüsn-rəğbətini qazanan və institutu bitirəndən sonra qəzetin ədəbiyyat şöbəsinin müdiri kimi işə başlayan Məmməd Oruc indi neçə hekayənin, ona yaxın povestin, üç romanın müəllifidir. "Geriyə baxma, qoca!" - yox, Məmməd Oruc geriyə də baxır, lap ömrünün bir su kimi axdığını, gah sakit, gah da gur axdığını görür, amma geriyə baxanda qətiyyən hansı bir əməlinə görə xəcalət çəkmədiyinə də əmin-arxayındır. Bir sözlə, Məmməd Oruc təmiz bir yazıçı ömrü yaşayır.

ADU-nun jurnalistika fakültəsində oxuyanda qəzetlərə məqalələr yazırdı. Yazılarındakı mövzuları, problemləri demirəm, amma onun dili, yazı tərzi o qədər təmiz idi ki, deyirdin içinə bir çöp də düşməyən bulaq suyudu.

Məmməd yaradıcılığa hekayə ilə başladı. Onun nəsrindən ilk oxuduğum yazı "Ulduz" jurnalında "Günlərin bir günündə" hekayəsi oldu. Hiss elədim ki, Azərbaycan nəsrinə istedadlı bir cavan gəlir və bu cavan yazıçı şəhərdə yaşasa da, hələ mənən kənddən ayrılmayıb. Kəndin, təbiətin, o Aran çöllərinin, orada yaşayan insanların içindədir və Məmməd Oruc başda Əli Vəliyev olmaqla Sabir Əhmədlidən, İsa Hüseynovdan, Əkrəm Əylislidən sonra sırf "kəndçi libasında" ədəbiyyata gəlir. Gəlir ki, kənddə yaşayan adi insanların qeyri-adi dünyasını, həyatla, məişətlə, müxtəlif qayğı və problemlərlə bağlı sözsovunu oxuculara çatdırsın. Gəlir ki, kəndin məxsusi etnoqrafiq, folklor inanclarını, dədə-baba yaşayış tərzini, milli-mənəvi dəyərlərini yazılarında əks etdirsin.

Günlərin bir günündə yaylaqdan babasının, nənəsinin yanına gələn bir uşaq kəndin qəribəliklərinə öyrəşə bilmir, amma tezliklə özü də hiss etmədən bu kəndin bir parçasına çevrilir. "O vaxtacan mən də bəzi tay-tuşlarım kimi elə bilirdim ki, müəllimlər çörək yemir. Amma Kamal müəllim mənim gözümün qabağındaca bir baş soğana bir yumruq vurdu. Sonra onu iri bir təndir çörəyinə yavanlıq elədi. Və mən səhər məktəbə ö tay-tuşlarımın yanına təzə xəbərlə qaçdım, yavaşca dedim: "Kamal müəllim çörək yeyir ey " Kamal müəllim bu məktəbli uşağın sevimlisinə çevrilir. "Kamal müəllimin çamadanında riyaziyyat kitablarından başqa heç nə gözümə dəymədi. Hətta bu bir qalaq kitabın arasında sevgi romanları da yoxuydu. Bu mənə çox qəribə gəldi; cavan oğlan olasan, sevgi romanı oxumayasan? Bizim kəndin bütün cavanları, hətta kətmən götürüb kolxoz işinə gedən qızları da sevgi romanları oxuyurdu. Və mən bilirdim ki, onlar ən maraqlı səhifələrin arasına nanə, qoz yarpağı qoyurlar. Hətta bəzi cümlələrin altından xətt çəkirlər". Amma Kamal müəllim sevgi romanları oxumasa da, "Ay bəri bax" mahnısını ürəknən oxuyur, kəndin gözəl qızlarının çoxunun gözü onda olduğu halda, arabaçı Əlişin heç də gözəl olmayan qızı Nargiləni sevir. Amma Nargilə onu sevmir, haçansa əsgərlikdən qayıdası traktorçu Cəfəri sevir. Və günlərin bir günündə Kamal müəllim də əsgərliyə gedir. "Mənə elə gəlirdi ki, bizim evdə Kamal müəllimin bir çamadan kitabınnan, qələm dolu qələmdanınnan, çarpayının başındakı əl-üz dəsmalınnan savayı, bir mahnısı da qalıb. Mənə elə gəlirdi ki, o mahnını Kamal müəllim mənə tapşırıb. Mənə elə gəlirdi ki, Kamal müəllim bu mahnını dəyirman yolundakı dağlara, dərələrə də tapşırıb".

Məmməd Oruc ilk hekayəsindəki bu lirik təhkiyə tərzini, dilinin, üslub tərzinin təmizliyini bütün sonrakı əsərlərində də saxladı, qorudu. Onun hekayələrində Suçu Qurban, Səlbi arvad, Mirzə doxtur, Mirzəli müəllim, Aşıq Məcid, Cəmil kişi obrazları uydurma deyildi, Məmmədin sərraf gözü ilə müşahidə etdiyi adamların özləri idi ki, bütün təbii görünüşləri, xasiyyəti, xarakteri, düşüncə tərzi ilə onun hekayələrinə, povestlərinə "köçürülürdü". Onun üçün "müsbət", "mənfi qəhrəman" tipləri əvvəlcədən planlaşdırılmırdı, çünki hər bir insanın içində işıq da var, bu işığa əngəl olan kölgələr də, müsbətin içində mənfi çalarları, mənfinin içində azca işığı da görmək mümkündür. Məmmədin "Leylək körfəzi" povesti haqqında otuz iki il öncə Xalq yazıçısı Bayram Bayramov yazmışdı: "Əsərin əsas qəhrəmanlarından biri - Qəşəmalı fikrimə gəldi. Yəqin səbəbi odur ki, Qəşəmalı ülgüyə tutulmuş, yonulub-hamarlanmış, sığallı-tumarlı müsbət qəhrəman deyil və ya da belinə bütün pisliklər yüklənmiş, ala-qara rənglərlə adamlıqdan çıxardılmış mənfi tip də deyildir. Adicə kənd adamıdır: qüsurları, kobudluqları, qayğıkeşliyi, özünün öz mənfəətini ölçübbiçməyi-qalan xasiyyətləri özününküdür. Yetimlərə qayğısı da, onları gücləri çatan-çatmayan işlərə buyurması da, dosta münasibəti də özününküdür. Qəşəmalı pozulmuş və ya rənglənmiş xarakter deyildir".

Məmməd Oruc cəmiyyətdə baş verən, quruluşun özündən doğan eybəcərlikləri, neqativ halları bir yazıçı kimi hiss edir və istər açıq, istərsə də mətnaltı yolla nəzərə çarpdırırdı. Əvvəlcə "Aldanmış çiçəklər", sonra "Murad quşu" adı ilə çap olunan povestdə təsvir olunan kənd sanki iki cəbhəyə bölünüb: bir tərəfdə Hüseyn müəllim kimi təmiz, ləyaqətli bir insan və ona qahmar çıxanlar, o biri tərəfdə isə kolxoz sədri Xudayarov və ona ləbbeyk deyənlər. Sovet dönəmində sanki hər kəndin Xudayarov kimi bir "ağası" vardı və "çoxusu həqiqətən də elə bilirdi ki, əlinin qazancını yox, Xudayarovun çörəyini yeyir". Hüseyn müəllim, Mustafa baba kimi haqq yolçuları Xudayarovun pis əməllərinə, ağalığına qarşı çıxır, yeri gələndə üzünə də söyləyirlər. Məktəbli uşaqlar da bu "ağalığın" ağırlığını hiss edir, Hüseyn müəllimə rəğbətlərini cizləmir, onun kimi təmiz, saf ürəklə yaşamaq istəyirlər. Çünki Hüseyn müəllim Qənbər müəllim kimi dərsin şirin yerində hansı uşağasa buyurmur ki, dədənə denən, bizə qarpız-yemiş göndərsin, kiməsə tapşırmırdı ki, sabah mənim qoyunlarımı otarsın. Hüseyn müəllim uşaqlara təbiətdən danışırdı, daha tarix müəllimi Tahir Əlləzoğlu kimi demirdi ki, oxumaq boş şeydir, indi hər institutun öz "daksisi" var. İndisə bütün kənd Hüseyn müəllimi son mənzilə qəbiristanlığa yola salır. Çoxusu da bu qəfil ölümün səbəbini bilir. "Amma hamını danışdıran şeksiz ki, bu qəfil ölümün səbəbi idi-hamıya məlum səbəbi. Amma heç kim Xudayarovun adını çəkmirdi".

Quruluşun, sistemin yaratdığı bu eybəcər hallar, cəmiyyətin insana vurduğu zərbələr Məmmədin digər əsərlərində də öz bədii həllini tapır. Sanki illərdən bəri içinə yığılan ağrı-acıları o ağ vərəqlərə boşaltmaqla təsəlli tapıb. Məmməd Orucun sosial-mənəvi problemləri, cəmiyyətdə baş verən kataklizmləri təsvir etməsi təbii idi, onun mənsub olduğu ədəbi nəsil də elə bu daxili qiyama, etiraza köklənmişdi. Onun "Sarıköynək" povestində sovet quruluşunun yaratdığı mənəvi despotizmin necə faciələr törətdiyi bir insanın timsalında ümumiləşdirir. Əlizaman kimdir? Niyə onun meyitinə heç kim yiyə durmaq, aparıb dəfn eləmək istəmir? Qardaşı da, həyat yoldaşı da, kəndin mollası da yaxasını kənara çəkir? Çünki əli pulla oynayan, rayonun panamalı, qalstuklu vəzifə sahiblərini də ələ alan, öz halal arvadını evin bir küncündə saxlayıb qızların, qadınların namusuna toxunan, nəinki kənddə, rayonda belə bir sözü iki olmayan Əlizaman elə bu quruluşun, bu sistemin yetirməsidir.

Məmməd Oruc müasir Azərbaycan nəsrini "Qara güzgü", "Köçürülmə" və "Qısa qapanma" romanları ilə zənginləşdirib desəm, qətiyyən yanılmaram. İlk iki roman qədim Azərbaycan torpağı olan Vedinin timsalında xalqımızın başına gətirilən faciələrdən söz açır. Birinci romanda keçən əsrin 1917-1920-ci illərində vedililərin başına gətirilən faciələr nəql olunur, xalqın sevimlisi Abbasqulu bəyin və onun silahdaşlarının ağıllı siyasəti sayəsində vedibasarlılar vətənə dönürlər. Tənqidçi həmkarım Nizami Cəfərov "Qara güzgü" romanını bir Vedibasar dastanı adlandırır və tamamilə haqlıdır, amma bu dastan kədərli, qəmli səhnələrlə doludur. Eyni ruh Məmmədin "Köçürülmə" romanında da davam edir. "İndi fikirləşirəm ki, payız imiş, o payızın soyundurduğu ağacları, saraltdığı dağları düzləri bu gün gözlərim önünə gətirə bilməsəm də payız imiş: bizi ev-eşiyimizlə bir yerdə harasa aparan yük qatarına vurduğumuz gülabı, armud səbətləri gözlərim önündədir, o gülabıların qoxusu burnumun ucundadır. Beş yaşına təzəcə keçmişdim. Bizi niyə köçürürdülər, hara köçürürdülər, bilmirdim, amma deyirdilər ki, bizim köçürüləcəyimiz yerdə daş yoxdur". "Köçürülmə" romanı bu xatiratla başlayır. Məmməd Orucun Qərbi Azərbaycanın Vedi rayonunun Böyük Vedi kəndində anadan olduğu və beş yaşında ailəsi ilə birgə öz doğma yurd-yuvasından köçürülməsi məlum: Məmməd romanın başlanğıcında elə buna işarə edir. Amma roman təbii ki, beş yaşlı uşağın deyil, illər boyu bu köçürülmə "mexanizminə" dərindən bələd olan, onlarla, yüzlərlə vedililərin taleyi ilə yaxından maraqlanan yetkin bir yazıçının qələmindən çıxıb. Yaxşı yadımdadır, roman hissə-hissə "Karvan" jurnalında çap olunurdu və satışa buraxılan kimi bir andaca əldən-ələ gəzirdi. Mənim fikrimcə, "Köçürülmə" ilk növbədə, insan əzablarının romanıdır. Müəllif realist bir yazıçı kimi tamamilə kənara çəkilib, əhvalatları zahirən sakit, əslində misə daxili bir yanğı ilə təsvir eləyib.

Romanda əllinci illərin əvvəllərində Vedi camaatının öz doğma yurdlarından deportasiya olunması prosesi bütün təfərrüatı ilə təsvir olunur. Müəllif bədiiliklə sənədliliyi "qovuşdurur", amma ikincisi burada elə bir əhəmiyyətli rol oynamır. Çünki romanda müxtəlif taleli obrazların həyatı, qarşılıqlı münasibətləri əks olunur. Hətta epizodik surətlərin də romanda öz "payı" var. Müəllif iyirminci illərin köçürülməsi ilə əllinci illərinkini bəzən paralel şəkildə təqdim edir: "O zaman Almurad on beş yaşına keçmişdi və on beş yaşlı uşağın xatirindən o hadisələr necə çıxa bilərdi? Düşmən gülləsinə tuş olan əmisi Abbasın yeganə oğlu Həsənalının qəbri hələ soyumamışdı. Abbasqulu bəy xəbər göndərdi ki, daha başqa yolumuz yoxdur, günü sabah Vedidən çıxmalıyıq, daşnaklar dağlara ingilis topu çıxarıblar. İki il mühasirədə qalan, iki il səngərdə gecələyən Vedi camaatını ingilis topu qorxutmadı, amma Abbasqulu bəy elə bir el ağsaqqalı idi ki, onun verdiyi qərar müzakirə olunmurdu. Onun sözü bütün vedibasarlılara qanun idi". Amma əllinci illərin əvvəllərində Abbasqulu bəy kimi ağsaqqal yoxdu, həm də köçürülmə siyasəti Moskvadan gəlirdi.

Romanda baş qəhrəman axtarmaq fikrinə düşmədik. Çünki təsvir olunan insanlar xasiyyətcə, xaraktercə müxtəlif olsalar da, eyni aqibəti yaşayırlar. Vedililər Azərbaycanın Jdanov rayonuna köçürülür, tamam başqa bir iqlim, başqa bir təbiət, ilk illərdə yerlilərlə gəlmələr arasında uyuşmazlıq, amma sonra hamı bu yeni şəraitə öyrəşir. Amma köçürülənlərin hamısı bir amalla yaşayırlar ki: "Biz qayıdacağıq".



Məmməd Oruc müstəqillik illərində də qələminə dinclik vermədi. 2001-ci ilə qədər elə düşünürdüm ki, Məmməd daha heç nə yazmır. Amma M.Oruc "Susuz gölün sonası", "Ağ qarğa", "Çay gəmisində gəzinti" kimi maraqlı hekayələr, sonra isə "Son dayanacaqlardan biri" adlı sənədli-bədii povestini çap etdirdi. Daha sonra müstəqillik dövrünün ab-havasını özündə əks etdirən "Atəşkəs yallımı" və "Qısa qapanma" romanlarını qələmə aldı. Yadıma gəlir ki, 1991-ci ildə "Ulduz" jurnalında Məmmədlə böyük bir dialoq apardıq. O dialoqda Məmməd Oruc yeni yaranan quruluşu alqışlayırdı. "Azərbaycan" jurnalı maliyyə böhranı ilə üzləşmişdi və tədricən tənəzzülə doğru gedirdi. Jurnalda bizimlə birlikdə çalışan Məmməd Yazıçılar Birliyinin xətti ilə Beyləqanda torpaq sahəsi aldı və orada fermer təsərrüfatı yaratmaq istədi. Amma torpaqla bağlı xəyallarının puç olduğunu görüb geri qayıtdı. Nə etmək? Yazıçının əlindən sahibi-karlıq gəlməz.

M.Oruc Azərbaycan hüdudlarından kənarda da tanınır, 1984 və 1992-ci illərdə Moskvanın "Molodaya qvardiya" və "Sovetski pisatel" nəşriyyatlarında iki kitabı rus dilində Tamara Kalyaginanın tərcüməsində işıq üzü görüb. Həmçinin bir sıra əsərləri Ukraynada, İraqda, Türkiyədə nəşr olunub. Amma onun özünün xeyli bədii tərcümələri var: Rusiya yazıçılarından M.Zoşşenkonun V.Belovun, S.Kozlovun, D.Mizqulinin, Knyaz Qoçağın, S.Ağayevin bir çox əsərlərini, Türkiyə tarixçisi Ə.Temirin "Çingiz xan" romanını ana dilimizə çevirib.

**Yetmiş yaşlı Məmməd Oruc öz yubileyinə nikbin bir ovqatla gəlir. Yazıb-yaratdıqları göz qabağındadır, bunlara görə ədəbi mükafatlar da alıb, amma özünün dediyinə görə onun bu həyatda ən böyük mükafatları Ayseli, Əsməri, Paşası və onlardan dünyaya gələn nəvələridir. Qoy həyat bu Məmməd Oruc camiəsinə daha xoş günlər bəxş eləsin!**